*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. --------------------*

**RƏFİYEVA XURAMAN ƏLİ**
**E-mail: xrefiyeva@gmail.com**
**ADPU-nun Şəki filialının**
**(Şəki şəh.,M.Rəsulzadə küç., 305)**

# MÜASİR DÖVRDƏ PEDAQOJİ FƏALİYYƏT PROSESİNDƏ MÜƏLLİMİN PEŞƏKARLIĞI VƏ ETİK DAVRANIŞI

**Xülasə:**

Müəllim elə bir şəxsiyyətdir ki, onda tapılan hər hansısa bir qüsur onun üçün qınaq obyektinə çevrilir. Buna görə də bu peşə çətin olmasına baxmayaraq müəllim səxsiyyətinə hər zaman tələbkarlıq olmuş , tələb edilmişdir. Çünki ,müəllim həm öyrədici , həm tərbiyəedici , həm təbliğatçı, həm də nümunəvidir. Bu xüsusiyyətlərin də hər biri müəllim şəxsiyyəti ilə onun fəaliyyətini əlaqələndirir. Müəllim öyrədici olmalıdır – bu vəzifə müəllim fəaliyyətinin əsasını təşkil edir. Belə ki, müəllim öyrətməklə bərabər, öyrədə-öyrədə özü də öyrənir. Şagirdlər müəllimin biliyinə və öyrətmə tərzinə xüsusi diqqətlə yanaşdığı üçün, müəllimdə hər hansısa bir qüsur tapdıqları zaman bu səhvə qarşı reaksiya verirlər. Ona görə də pedaqoji fəaliyyətə başlayan hər bir gənc müəllim buna diqqət yetirməlidirlər. Müəllim özünün tədris etdiyi fənni yaxşı bilməlidir, əks halda dərs zamanı istifadə edilən hər hansısa metod və üsul onun üçün yararlı və əlverişli şərait yaratmayacaqdır. Müəllim peşə fəaliyyəti zamanı müəllim adına və nüfuzuna, habelə təhsil müəssisəsinin işgüzar nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verməməlidir.Mədəni davranış – müəllim təhsilalanlarla, rəhbərlik və həmkarları ilə davranışında nəzakətli, xeyirxah, diqqətli və təmkinli olmalıdır.

**Açar sözlər:** Müəllim şəxsiyyətinin formalaşması, etik davranış, tərbiyə ünsürləri, səriştə

Müasir dövrdə şagirdlər çoxlu məlumata, biliklərə malik olduğu üçün müəllim çalışmalıdır ki, bu məlumatları daha yaxşı şəkildə şagirdlərə çatdıra bilsin. Müəllim eyni zamanda tərbiyəedici olmalıdır – müəllim tərbiyə verəndir. Bu özünü təlim zamanı ibtidai siniflərdə təhsil alan şagirdlərin müəllim tərbiyəsini daha çox qəbul etdiyinə nümunə ola bilər. Müəllim peşə fəaliyyəti ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düzgün nəticə çıxarmalıdır. Müəllim səmimi, çalışqan, intizamlı, təşəbbüskar olmalı, xarici görkəminə, geyiminə xüsusi fikir verməli, hər zaman səliqəli olmalıdır.Müəllimin öyrətmə qabiliyyəti onun didaktik qabiliyyətidir.

M.İlyasov yazır: “Mənəvi zənginlik kamillikdir. Özündə olan nöqsan və yaxşı cəhətləri dərk edərək yaxşını artırmaq və nöqsanı aradan qaldırmaq iqtidarına malik olmaq insanı kamilliyə aparan, onu kamil edən amillərdəndir [2, 71].

Müəllim vətəndaşlıq borcunu dərk etməli və yerinə yetirməli, cəmiyyət üzvləri ilə münasibətlər qurarkən öz şəxsiyyətini qorumalı və mənfi təsir altına düşməməlidir.Həm valideynlər, həm böyüyən nəsil nümayəndələri öz mənəvi və ictimai tərəqqi məfkurələrinin zənginləşməsində, bu sahədə onlara ağıl, davranış tərbiyəsi yolu ilə qapılar açan hər bir müəllimə bütün ömürləri boyu minnətdarlıq edirlər. Respublikamızın rayon və şəhərlərində fəaliyyət göstərən və müxtəlif cəhətdən nümunəvi iş təcrübəsi olan qabaqcıl müəllimlərimiz çoxdur. A.Abbasov yazır: “Uşaqlar müsbət nümunələr, mütərəqqi adət və ənənələr əsasında tərbiyə almalıdırlar. Lakin həyatdakı mənfiliklər, naqis hallar və onların doğurduğu nəticələrə də diqqət yetirilməlidir ki, həmin acı nəticələr uşaqlara məlum olsun” [1, 13].

Müəllimlik sənəti qəhrəmanlıq sənətidir. Valideynlərin minnətdarlığı, şagirdlərin məhəbbəti isə ən böyük mükafatdır. “Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, o oxumağı dayandırdıqda ondakı müəllimlik ölür”

Özünə, şagird və tələbələrinə hörmət edən, pedaqoji etika çərçivəsində onlarla davranan, əxlaqi-mənəvi normalara daim sadiq qalan ustad müəllim bu gün ətrafda baş verən sosial-iqtisadi, mənəvi-siyasi hadisələrə də biganə qala bilməz. O, ardıcıl olaraq müəllimlərin etik davranışını səciyyələndirən radio və televiziya verilişlərinə imkan daxilində qulaq asmalı, bu səpgidə qəzet və jurnal materialları ilə tanış olmalı, kitablar oxumalı, yeri gəldikcə şagirdlərini(tələbələrini) də tanış etməli, onların yanında üzüağ olmalıdır. Bunsuz müəllimin etik (tələbələrini) də tanış etməli, onların yanında üzüağ olmalıdır. Bunsuz müəllimin etik davranış qaydaları səmərəsiz olar, pedaqoji fəaliyyət zamanı onun ustad müəllim keyfiyyətinə xələl gələr.Odur ki, müəllim peşə fəaliyyətində daha mükəmməl və əzəli olan etik davranış prinsiplərini daim uca tutmaqla, bu yolda müasir və orijinal təsirə malik tələblər sisteminə ciddi məhəl qoymalı, etik dəyərlər paradiqmasının aliliyini, vicdanlılığını, peşəkarlıq və fərdi məsuliyyətini, mədəni davranış etiketlərini, göstərməlidir. Müəllim davranış mədəniyyətində daima haqq və ədalətlilik nümunəsi göstərməli, gördüyü xeyirxah işdən maddi təmənna ummamalı, şagirdin (tələbənin) həyatına mənəvi çıraq tutmaqda, ona güzəştsiz mövqe qazanmağı öyrətməklə yanaşı, yeri gələndə təmənnasız kömək səyini də ondan əsirgəməməlidir.

Görkəmli sovet pedaqoqu V.A.Sxomliniski deyirdi ki, ən əvəzsiz hədiyyə başqa adama sevinc, xoşbəxltik bəxş etməkdir. Müəllim təbəssümü və sevinci şagirdlərin qəlbində xeyirxahlıq,insanlıq münasibətləri, məhəbbət ,gözlərində isə qığılcım yaradır. Müəllim öz üzərində işləməklə biliyini, metodikasını hər gün zənginləşdirməyə çalışmalıdır. O, biliklərin bələdçisi olub, şagirdərin özlərini yeni biliklər öyrənməyə istiqamətləndirməli, öyrənməyin yollarını öyrətməklə onların şəxsiyyətini inkişaf etdirməlidir. Görkəmli alman pedaqoqu, alman müəllimlərinin müəllimi hesab edilən A.Disterveqin “Pis müəllim həqiqəti təqdim edir, yaxşı müəllim isə onu tapmağın yollarını öyrədir” – kəlamını yaddan çıxarmamalıdır.

Ayrı-ayrı mühitdən gələn uşaqlar bir sinifdə toplaşır. Fərqli xüsusiyyətləri olan uşaqlar müəllimin köməyi, şəfqəti ilə bir-birinə uyğunlaşmalıdırlar. Deməli müəllim şəfqətindən, düzgün etik davranışından çox şey asılıdır. Müəllim etik biliklərə o qədər yiyələnməlidir ki, bunu şagirdlərə başa salmalı, onları hərtərəfli inkişaf etdirməlidir. Müəllim yaxşını qabağa çəkib, zəif oxuyanı danlamamalı, əksinə, hamısı ilə eyni qaydada davranmalı və müəyyən şəraitdə onu başa salmalı, ruhlandırmalıdır. Deməli müəllim şagirdləri elmə həvəsləndirməli, öz davranışı ilə onlara nümünə olmalıdır.

Görkəmli sovet pedaqoqu V,A.Sxomlinski çox haqlı olaraq deyirdi ki, hadisəni, olmuş, baş vermiş hərəkəti müalicə etməyin , onu yaradan səbəbləri müalicə edin! Səbəbləri müalicə etmək üçün müəllim uşaqlıq dünyasının sirlərini bilməli, uşaqlıq adlı nəhəng saraya daxil olmağı bacarmalıdır.

V.A.Suxomliski yazırdı: Müəllim ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər. Çətin tərbiyə olunan uşaqlarla işləmək, xəstə uşaqları ruhlandırmaq hər bir müəllimin əsas vəzifəsidir".

A.S.Makarenko yazırdı: "Tərbiyə hər zaman baş verməlidir. Hətta siz evdə olmasanız da belə uşağın olduğu bütün mühit və şərait ona müsbət təsir göstərməlidir.

Peşə fəaliyyətinin əsas uğuru müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəkliyi ilə xarakterizə olunur. Səriştəlilik, uğura aparan əsas yolun başlanğıcıdır. Müəllim səriştəli olduqda onun pedaqoji fəaliyyəti bütün istiqamətlərdə özünəməxsus məzmun və xarakter alır, seçilir, fərqlənir. Lakin səriştəlilik nə diplomla verilir, nə də birdən-birə formalaşır. Onun qazanılması bilavasitə pedaqoji proseslə, həm də yaradıcı şəkildə axtarışlar aparmaqla müəllimin müntəzəm olaraq üzərində çalışması, nəzəri və praktiki bilik və bacarıqlarını artırması ilə sıx bağlıdır" [3, 19]. Təcrübə göstərir ki, müəllimin nüfuzunu qoruyub saxlaması çox çətindir, ona görə ki, bu proses özünə nəzarətin bir an da zəifləməməsini, əksinə, gücləndirilməsini tələb edir.

Bu gün müəllimlərlə bərabər valideynlər də pedaqoji prosesin iştirakçısı kimi şagird şəxsiyyətinin formalaşmasında böyük məsuliyyət daşıyırlar. Ümumtəhsil məktəbləri üçün hazırlanan yeni dərslik komplektlərində valideynlər üçün də tövsiyələr yer almışdır. Hər bir valideynin öz övladının təhsil mühiti ilə tanış olmaq imkanları genişdir. Əgər valideyn əvvəllər ənənəvi mühitdə müəllimlə əlaqə yaratmaq üçün mütləq məktəbə gəlməli idisə, bu gün məsafədən təhsilin tətbiqi bu əlaqələrin yaradılması şəbəkəsini genişləndirmişdir. Valideyn öz övladının dərslərinə daha çox nəzarət etmək imkanları əldə edir. Bu baxımdan valideyn-müəllim, ailə-məktəb əlaqələrinin daha da gücləndirilməsi vacibdir. Bəzən ailədə uşağa düzgün verilməyən tərbiyə də onun məktəbdə adaptasiya işini çətinləşdirir. Prof. H.Ə.Əlizadə qeyd etmişdir: "Hər bir insanın sosial tərbiyəsi ailədən başlayır.

Bütün ailələrdə valideynlər öz uşaqlarının xoşbəxt gələcəyə malik olmasını istəyirlər. Lakin bu istək azdır. Heç də bütün valideynlər uşağın gələcək xoşbəxtliyini təmin etmək üçün obrazlı desək, sosial tərbiyənin özülünü möhkəm qoya bilmirlər. Bu hər şeydən əvvəl, ailədaxili münasibətlərin düzgün tənzimlənməməsindən irəli gəlir". Ona görə də yaxşı olardı ki, pedaqoji korreksiya işinin daha effektiv olması üçün uşağın öz ailə üzvləri də korreksiya işinə

cəlb edilsinlər. Ailə mühitində böyüməyən uşaqlarla pedaqoji korreksiya işi isə onların daha çox ünsiyyətdə olduğu sosial qrupa görə müəyyən edilməlidir. Məktəb mühitinə çətin adaptasiya olan kiçik məktəbli uşaqlar bəzi hallarda inadcıl, tərs, özbaşına, aqressiv, bəzi hallarda isə iradəcə zəif, tez təlqinə düşən, emosional baxımdan isə apativlik və asteniklik nümayiş etdirirlər. Bununla bağlı prof. Ə. Ağayev qeyd etmişdir: " Davranışında əyintilərin olması uşaqlar üçün təhlükə yaradır, onlar qəsdə cəhd edir, təlimdən uzaqlaşır, öz gələcəklərini düşünmürlər". Bunu nəzər alaraq uşaqların iradi keyfiyyətlərinin inkişafına xüsusi diqqət göstərmək lazımdır. Sosial pedoqoji korreksiya işində diqqət mərkəzində olan əsas məsələ uşaqda emosional iradi sferanın müsbətə doğru inkişaf etdirilməsidir. Bütün davranış nöqsanlarının özəyində uşağın iradə zəifliyi və emosional baxımdan tez mənfi təlqinlərə məruz qalmasıdır.

Müəllimlik – yüksək insani istedad tələb edir. Təbiidir ki, bu keyfiyyət hər kəsdə olmur. Ardıcıl özünənəzarət, əhvalı kökdə saxlamaq, şagirdə, tələbəyə münasibət ayrıca nəzərdə tutulur. Bu bir həqiqətdir ki, şagirdlərə təlimə məsuliyyətli münasibətin yaradılmasında müəllimin rolu böyükdür.Akademik A,X. Mirzəcanzadə bu xüsusda yazırdı: ―Təlim prosesində yalnız şagirdin müəllimlə görüşü yox, bir də onların bir-birini anlaması əsas şərtdir. Müəllimlə şagirdin açıq ürəklə danışması, sərbəst fikir mübadiləsi çox şey öyrədir» (4, s. 227). Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

## Nəticə:

Müəllim gənc nəslin mənəvi estetik tərbiyəsinin inkişaf etməsində böyük rol oynamalı, həm özünün, həm də şagirdlərin milli əxlaq, ictimai davranış, pedaqoji-etik normalarına riayət etməlidir. Bütün bu qaydalara layiqincə əməl edən müasir müəllim öz üzərində işləyərək kollektivin hörmətini qazanır və yüksəlir. Müasir müəllim şəxsiyyətinin formalaşması, hərtərəfli inkişaf etməsi, gənc nəslə dayaq olması dövrümüzün ən vacib, aktual məsələlərindən biridir. Hər bir Azərbaycan müəllimi öz peşə nüfuzunu möhkəmləndirməyə, şərəf və ləyaqətini uca tutmağa borcludur. Hər an öz üzərində çalışan, yeni fikirlər axtaran, hörmətli müəllimlərimizlə fəxr edir, onlara bu şərəfli məsləkdə uğurlar arzulayırıq.

Bu gün müəllim peşəkar olmalı, müxtəlif pedaqoji təsir qabiliyyətinə malik olmalı, mümkün ola biləcək nəticələri proqnozlaşdırmalı, bir sıra təhlil və

özünənəzarət üsullarını mənimsəməli, yeni sosial-iqtisadi tərbiyə şəraitini, bazar münasibətlərinin reallığını pedaqoji cəhətdən dərk etməlidir.

## ƏDƏBİYYAT

1.Abbasov Akif. Ailə tərbiyəsinin prinsipləri. "Peşə təhsili və insan kapitalı" jurnalı. Cild 2, N-2, 2019. Səh. 12-19. Layout 1 (vet.edu.az) 18

2.İlyasov Müseyib. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2018, 208 s.

3. İlyasov Müseyib. Səriştəli müəllim hazirliği pedaqoji təhsilin əsas hədəfi kimi. "Peşə təhsili və insan kapitalı" jurnalı. Cild 2, N-2, 2019. Səh. 19-24. Layout 1 (vet.edu.az)

4.Mirzəcanzadə A.X. İxtisasa giriş. BDU-nun nəşri, 1990, 367 s.

**Рафиева Хураман Али**

## ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ПЕДАГОГА И ЭТИЧЕСКОГО ПОВЕДЕНИЯ В ПРОЦЕССЕ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В СОВРЕМЕННЫЙ ПЕРИОД

## РЕЗЮМЕ

Учитель – такая личность, что любой обнаруженный в нем недостаток становится объектом критики. Поэтому, несмотря на то, что эта профессия трудна, личность учителя всегда была требовательной. Потому что учитель – это и учитель, и воспитатель, и пропагандист, и пример. Каждая из этих характеристик связывает личность педагога с его деятельностью. Учитель должен быть учителем – эта задача лежит в основе деятельности учителя. Таким образом, наряду с преподаванием учитель также учится во время преподавания. Поскольку студенты уделяют особое внимание знаниям учителя и стилю преподавания, то, находя в учителе какую-либо ошибку, они реагируют на эту ошибку. Поэтому каждый молодой учитель, начинающий преподавать, должен обратить на это внимание. Учитель должен хорошо знать предмет, который он преподает, иначе любой метод и метод, используемые на уроке, не создадут для него полезных и благоприятных условий. Педагогические способности учителя – это его дидактические способности. В процессе профессиональной деятельности педагог не должен допускать действий, которые могут нанести ущерб имени и репутации педагога, а также деловой репутации образовательного учреждения. Культурное поведение - педагог должен быть вежливым, добрым, внимательным и сдержанным в своем поведении, с студенты, руководство и коллеги. Преподаватель должен принимать, оценивать и делать правильные выводы из замечаний и критических мнений, связанных с профессиональной деятельностью. Учитель должен быть искренним, старательным, дисциплинированным, инициативным, уделять особое внимание своему внешнему виду и одежде, всегда быть опрятным.